17 şəban 1332 | **Doqquzuncu il** | 28-го июня 1914 г.

# ملا نصر الدين

**№21 Qiymәti 12 qәpik.** | МОЛЛА НАСРЕДДИНЪ | **Цена 12 k. № 21**




Litoq. S.Bıxova.

*İki tamaşaxana* *Два музея*



**Adres:** *Tiflis, Davidov küçəsi nömrə 24.*
**Адресь:** *Тифлись, Давидовская, 24.*
**Teleqram üçün:** *Tiflis, "Molla Nəsrəddin".*
**Для телеграмм:** *Тифлись, "Молла Насреддинь".*
***Подписная цена:***
***На годь - 6 руб.***
***6 месяц - 3 р. 50 к.***
***3 месяц - 2 р.***
***1 месяц - 40 к.***
Adres dəyişmək haqqı 3 dənə 7 qəpiklik markadır.

**Qafqazda və Rusiyada**
**12 aylığı - 6 manat**

"------------------------" 6 aylığı - 3 manat yarım
"------------------------" 3 aylığı - 2 manat
"------------------------" 1 aylığı - 40 qəpik
*Əcnəbi məmləkətlərdə 12 aylığı - 7 manat*
"------------------------" 6 aylığı - 4 manat

***Tək nüxsəsi idarəmizdə 10 qəpik, özgə şəhərlərdə 12 qəpik.***

# Ədəbiyyat

*20-ci nömrədə "Cinani"yə cavab*

*Çox eybculuq etmə məndən sənə vəsiyyət*
*Sanma ki, millətində bilmərrə yoxdu qeyrət*
*Osmanlılardan etmə bir bu qədər şikayət*
*Kilki-qəza yazıbdır bu mətləbi əzəldə*
*Bir eyb olar yəqinən dünyada hər gözəldə.*

*Allahını sevərsən hər eybi eyb sanma*
*İnsaf, mürüvvət elə çox sözlərə inanma*
*Şam, Hələb, Yəmənli, vəhşisə də utanma*
*Kilki-qəza yazıbdır bu mətləbi əzəldə*
*Bir eyb olar mühəqqəq dünyada hər gözəldə.*

*Tunis, Sudan, Cəzair əhlin birəlli tutma*
*Hər bir yetənə yetmə, yetməyənə daş atma*
*Xalqın yuma babalın, çox da sözü uzatma*
*Kilki-qəza yazıbdır bu mətləbi əzəldə*
*Bir eyb olar müsəlləm dünyada hər gözəldə.*

*Gərçi Mərakeş əhli bir yerdə girə keçdi*
*Molla Əzizi qovdu Molla Həfidi seçdi*
*Getdi o da Parijdə cami-məhəbbət içdi*
*Kilki-qəza yazıbdır bu mətləbi əzəldə*
*Bir eyb olar həmişə vazehdi hər gözəldə.*

*Tehranda gözləyirlər gərçi cülusi-şahı*
*Təbrizli qurmuş amma bir başqa dəstgahı*
*Yoxdur bu yerdə əsla heç bir kəsin günahı*
*Kilki-qəza yazıbdır bu mətləbi əzəldə*
*Bir eyb olar yəqindir aləmdə hər gözəldə.*

*Hərçəndi çoxdu bizdə boş-boş ədavət etmək*
*Hər bir işin dalınca laənşüur getmək*
*Hər cövr, zülmə dözmək, hər bir cəfaya bitmək*
*Kilki-qəza yazıbdır bu mətləbi əzəldə*
*Bir eyb olar mühəqqəq dünyada hər gözəldə*

*Cüvəllağıbəy*

## RUHANİLƏR YIĞINCAĞI

İndi mən bu sözləri yazıram və bilmirəm ki, mənim bu sözlərimi oxuyan başa düşəcəkmi ki, nə yazıram və nə deyirəm, yainki başa düşməyəcək. Bunu hamı bilir ki, müsəlmanca oxumaq və qanmaq bir hünərdi. Əvvəla, o hürufat ilə ki, biz yazırıq, onu oxumaq çətin bir məsələdir. Bu barədə çox danışmışıq, hazır bu yazdığım "danışmışıq" kəlməsinin on beş nöqtəsinin biri artıq-əskik düşsə, oxumağı çətin olacaq, vay bizim halımıza, vay mürəttiblərimizin gününə, heyf oxucularımızın gözlərinin işığına.

Hələ bu belə.

İndi qaldı o biri məsələ. O da Fitilbörkdə ruhanilərimizin yığıncaq məsələsidir ki, ordubadlıların və Padar camaatının göz dikdikləri məsələdir. Doğrusu indi biz bədbəxt müsəlmanların gələcəkdə xoşbəxt və bədbəxt olmağımız həmin bu məsələdən asılıdır. Əgər həmin Peterburq yığıncağında qərar qoydular ki, Bakı ruhanilərimizin məvacibini artırsınlar, o vədə bizim gələcəkdə nicatımıza genə bir ümid yolu var, əgər belə olmasa, dəxi evimiz yıxıldı. Həqiqət, bizim işlərimiz çox dalqabaq düşüb. Bax, Bakıdan vəkil seçib göndərdilər, amma bulara deyən oldumu ki, gedib orada nə danışsınlar və nə yolda çalışsınlar, heç bir bunu yada salan oldumu ki, Bakıda hər bir yazıq adamın yolu ki, qəzavətxanaya düşür, evinə qayıdan kimi deyir: "Arvad, iynə sap ver, cibimin deşiklərini tikim". Hələ bunu görə-görə və bilə-bilə imam Quramşin həman məclisdə gör nə danışıb: durub ayağa və bir odlu nitq də söyləyib ki, gərək bizim övrətlər ilə kişilərin hüququ bərabərləşsin, yəni kişilər küçəyə üzüağ çıxan kimi övrətlərimiz də üzüaçıq çıxsınlar. Maşallah söz danışana, hələ bilmirəm bu nə vəkildir. İmam Quramşin kimdir, bu nə sözdü, hələ bilmirəm Topçibaşov cənabları nə səbəbə bu imama cavab verməyib.

Bir də eşitdim ki, Peterburq məclisində Qafqaz vəkilləri bu məsələni ortalığa qoyublar ki, müsəlman qızları doqquz yaşa çatandan sonra dəxi məktəbə qəbul olunmasınlar və oxuyurlarsa da məktəbdənkənar olsunlar. Bunun da səbəbi məlumdur. Çünki qız doqquza çatandan sonra dəxi naməhrəmdir və ərə getməli vaxtıdır. Hərçənd bu təklifə dovzanqurdlular və bakılılar razı olmuyublar, amma qələt eləyirlər.

Bir də qaldı Maku xanlarının bir-birlərini qırmaq məsələsi və Bakıda Pyantkovski artistka xanıma on min manatlıq brilyant bağışlamaq məsələsi: bu məsələlər barəsində də Peterburqda ruhanilər yığıncağında danışıq olunub amma hələ ki nəticəsi bizə məlum deyil. Bunu biləndən sonra gələn nömrədə yazarıq.

*Hələ ki, sizin sağlığınız.*
*Molla Nəsrəddin*

## TELEQRAF XƏBƏRLƏRİ

Həmədan - Bu il xaşxaş hasili gözəl olduğuna görə tiryakilər şadlıqlarından qəbristanda tulavurma oynayırlar.

Səlyan - Bura camaatının axır vaxtlarda tiryak çəkməyə meyilləri artdığına görə bu il cəmi Səlyan mahalında taxıl əvəzinə xaşxaş əkiblər. Tiryakın artıq dərəcədə bolluğu görsənir. Ona görə cəmi şərabxorlar şərabdan tövbə edib yekdil, yekcəhət tiryaki oldular.

Həmədan - İntixab məsələsi aralığa düşəndən Hacı Əmir Nizam dilənçi halına gətirdiyi rəiyyətlərinə 12 çuval tək şahı paylayıbdır.

## HƏDİS

Bir gün Həzrət Musa Tura gedirdi. Gözü xariqüladə bir heyvana sataşdı ki, hədsiz-hesabsız əzası var idi. Amma başı yox idi. Həzrət o heyvana yaxınlaşdıqda səs gəldi ki, ya Musa, indi ki zəhmət çəkib Tura gedirsən, Allah təaladan istiğasə elə ki, mənə bir baş mərhəmət etsin... Qayıdış baş Musa genə həman heyvana rast gəldi, gördü ki, bir baş əvəzinə o heyvanın yeddi dənə qırxıq başı vardır. Bu işə nəhayət dərəcədə təəccüb edib sirrini Allah dərgahından soruşduqda cavab gəldi ki: "Ya Musa! Heç təəccüb etmə. Əgərçi bir baş əvəzinə o heyvana yeddi baş kəramət etdimsə də çünki hamısı qırxıqdır, qırxıq başı baş hesab eləmək olmaz".

## BAKI XƏBƏRLƏRİ

Dünən "Səfa" cəmiyyətinin sənət məktəbi açıldı. Rəsmi güşadda milyonlarca camaat hazır idi. Çoxlu yağlı-yağlı nitqlər söyləndi. Allah bu nitq sahiblərini Çənbərəkənd camaatına çox görməsin.

Bakı milyonerlərinin bir zırpısı Qurana and içibdir ki, qumara uduzduğu pullarını qaytarandan sonra dövlətinin yarısını millət yolunda xərc eləyib, zorba-zorba işlərə iqdam etsin.

- Bir neçə gün bundan əqdəm müsəlman səhnəsinin (Şalyapini) Bakı camaatından acıq eləyib Qafqaz meşələrində sakin olmağı özünə qərar verdi. Aldığımız xəbərlərə görə bu saat Qarabağdadır.

Şeyx Barazin məşhur bə Şeyx Divaneyi-Mosil.



Mən bu dılğır qoşunum ilə osmanlı hökumətini darmadağın edəcəyəm.



Ay pırt

Ədə qoyma gəldi…

*Tiflisdə yaş yemiş tacirləri*
**Тифлисскии фруктовщикъ**







*- Əfəndim nə yapırsınız?*
*- Lüğət kitabı axtarıram ki, siz ilə danışa biləm.*

- Bir neçə gün bundan əqdəm Bakı dupdatxanası Topçıbaşov cənablarını ruhani məsələlərdən ötrü vəkil seçmək istəyirdilər. Amma çünki o məclisdə intelligentlərdən bir kəs yox idi, o səbəbə Topçıbaşov cənabları acıq edib seçilməyə razı olmadı.

## BALACA FELYETON

Abiçarə Molla əmi! Doqquz ildir elə hey yazırsan ki, gərək müsəlman arvadlarının üzləri açıq ola və bu xüsusda bəzi dəlillər və bəzi ayələr ilə isbata çalışırsan. Dünyanı özünə müddəi edib öz batil sözündə möhkəm durmusan və hətta Qafqaz müftisi Hüseyn əfəndini də iğfal edib arvadların üzlərinin açıqlığına fitvalar verdirtmisən. Əcəba insaf dairəsindən kənara çıxmayalım. Görək belə-belə fitvalara İran, Türküstan, Osmanlıda olan axundlar və işanlar razıdırlarmı? Əbəda, odur ki, təkfir danələri yağış kimi hər tərəfdən başına yağmaqdadır. Ba həmeyi-in genə utanmırsan yazırsan. Bircə bu bica və əhəmiyyətsiz məsələlərə razı olsa, sənin kimi avamfərib axundlar, Molla Zəki Mollazadə cənabları olar. Əlhəmdülillah onu da ki, neçə illərdir Dərbənd, Quba şəhərindən əllameyi-fəhhamə Axund Molla Qəvam və Molla Hacı Baba axundlar kafir və laməzhəb hesab edib qovublar və indi məlum deyil ki, harada toxum çıtdıyır. Səbr elə səni də onun kimi ixraci-bələd edərlər. Oturubsan Tiflisdə heç bir zaddan xəbərin yoxdur. Buyur təşrif gətir Vladiqafqaza gör nə qiyamətdir. Türklər demişkən meşədə qurd az idi, birisi də gəmi ilə gəldi. Sənin şəmatətlərindən qurtarmamış bu yandan Saleh bəy Zöhrabbəyov çıxdı. Sən Allah gör götürüb "Təriq" qəzetində nə yazır? Sən Allah ağıla, kamala bax, götürüb yazır ki, müsəlman arvadlarına yüz açmaq şər'i-şərifdə caizdir, məhz mollalar qoymayırlar. Bu sözlərin bərəkətindəndir ki, bir cavan oğlan bir tacir qızına aşiq olub, hər ikisi bir faytona əyləşib düz gedirlər Axund Molla İsmayıl axundun evinə və hər ikisi iqrar edirlər ki, bizim kəbinimizi kəs və Molla İsmayıl da bir az fikir edəndən sonra cavana deyir ki, get sabah gələrsən, kəsərəm. Cavan qayıdıb gedir qız qalır orda. Həmin saat qızın atasına xəbər göndərir ki, qızını yoldan çıxarıblar gəl vəkil ol qızın siğəsin əmisi oğluna oxuyum. Biçara qız gözlərinin yaşını abineysan kimi tökür ki, mən ölsəm də əmim oğluna getmərəm. İndi Saleh bəy bu mətləbi ünvan eləyib deyir ki, niyə görə gərək qız öz istədiyinə ərə gedə bilməsin?!! Bundan əlavə bir nəfər Rübabə adlı qız da Təbrizdə qıç ağrısına giriftar olub, Təbriz hamamları natəmiz olduğuna görə bir nəfər rus kazağına qoşulub gəlibdir burada özünü müalicə etdirir. Dünən canına qurban olduğum Molla İsmayıl qəribənəvazlıq edib onun əyalətinə getmişdi...

Xülasə, Molla əmi! Səni and verirəm yunanların bahar buludu kimi yalandan guruldamağına, İran Sədr Əzəmi Əlaüssəltənənin qəlbindəki məxfi millət məhəbbətinə, Hacı İmamcümənin siyasət aləmində binəzir olduğuna, Şücaüddövlənin gecələr məşrutə haqqında gizli məclislərinə, Vladiqafqaz dükanlarında pərdə əvəzinə qəfəslərdən asılan əmmamə parçalarına, mənim bu Həmədan keçə börkləri kimi uzun məktubumu sevgili "Kaşiful-həqayiq" jurnalınıza dərc ediniz! Sizə həqiqi müxlis

*İtboğan Qasım*

## LƏTİFƏ

Bakıda çıxan "Məktəb" məcmuəsinin 12-ci nömrəsində bir belə lətifə oxuduq:

Bir dəfə bir çoban çöldə qoyunlarını otarırdı və axşama qədər Naxçıvan bəyləri kimi asudə vaxt keçirirdi. Bir gün bu çoban düzdə ağacın altında oturub müsəlman qardaşlar kimi şirin yuxuya getdi və yuxunun içində başını gah aşağı və gah yuxarı qaldırırdı, guya ki, orucağız hacı Həsən əmidi. Qoyunların içində olan bir qoç, çobanın aşağı, yuxarı başını oynatmasını görüb elə zənn etdi ki, çoban onu döyüşməyə çağırır. Ona görə də qızdı, acıqlandı və sonra Bakı qoçusu kimi dalı-dalı gedib özünü yığışdırdı və çobanın üstə hücum edib ona bir ləzzətli kəllə vurdu. Çoban şirin yuxudan sərasimə durub artıq dərəcədə qəzəbləndi və qoçu tutub bir quyuya tulladı. Bu halı görən qoyunlar İran rəiyyəti kimi sürü ilə gəlib quyuya tullandılar.

## İDARƏYƏ MƏKTUB

Molla əmi! Siz elə yazırsız ki, müsəlmanlar tərəqqi eləməyirlər, təhsili-üluma rağib deyillər, hamıdan dalı qalıblar. İndi sizin bu əqidənizin əksi mülahizə olunur: məgər görmürsüz ki, bir yaya keçmir ki, müəllimlərimizdən beşinin, altısının yubileyi icra olunmasın. Keçmişlərdə bir 25 il tamam olduqca, yəni 25 illik, sonra 50 illik və ondan sonra 75 illik yubileylər icra olunurdular. İndi bizim müəllimlərimiz 25 illik yubileylərini etdikdən sonra hər beş ildə bir yubiley icra edirlər. Bunun səbəbi budur ki, beş il müddətində millətə və vətənə o qədər xidmətləri olur ki, uzaq müddət keçəndən sonra onları yığıb yığışdırıb qəzetlərdə və jurnallarda vəsf və təhrir eləmək mümkün olmayır. Budu möhtərəm müəllimlərimizdən biri beş il bundan əvvəl 25 illik yubileyini icra etmişdi. İndi də 30 illik yubileyini icra edir. Hər tərəfdən müəllim yoldaşları o cənaba təbrik teleqramları göndərməkdədirlər. Əlbəttə, belə yubileylər boş-boşuna deyillər. Müəllimlərimizin millətin və vətənin tərəqqisinə bais olmaqlarını bildirirlər. İndi deyəcəksiniz ki, bəs tərəqqi özü hanı, nə üçün gözə görünməyir? Bu bir söz deyil. Arvadlarımız, qızlarımız da gözə görünməyirlər. Bununla demək olmaz ki, arvadlarımız, qızlarımız yoxdurlar. Necə ki, arvadlarımız, qızlarımız pərdə dalındadırlar, ha elə də tərəqqimiz pərdə dalındadır və belə olduğu çox yaxşıdır və illa qeyri tayfalar görərlər gözləri dəyər və paxıllıq edib onu yox eləməyə çalışarlar. Qoy tərəqqimiz pərdə dalında qalsın. Ancaq müəllimlərimiz tez-tez gurultulu yubileylər icra etmək ilə tərəqqimizin varlığını bildirsinlər ta ki, dost şad və düşmən kor olsun.

*İmza: Dilicanlı*

## ELAN

Yaxşı kəndlər, abad qalalar, cavan və gözəl qızlar və arvadlar ucuz və münasib qiymətə satıram. Hər kəs talib olsa aşağıdakı adresə rücu etsin.

*Qoçan, Şahzadə Ədlüddövlə*

## POÇTA QUTUSU

"Gözüqıpıq"a – Orucluq barəsində yazdığın şerlər ki:

*Qızışdırar siyam ayı*
*Musurmanın həvasını*
*Təmamisi qalaylatlar*
*Qazanlar ilə tasını.*

Çap olunmadı. Çünki orucluq barəsində məcmuəmizdə çox-çox yazılıbdır.

*Müdir və baş mühərrir:*
*Cəlil Məmmədquluzadə, Əliqulu Nəcəfov*

*Электроп. Грузинск.*
*Изд.Товарищества Больш. Ванкская ул. №12*

*Bakıda Əliyev qardaşlarının brilyant mağazası*
*Бриллиантовый магазинъ БР.Алиевыхъ въ Баку*



*Oynaşlarını təzələyənlər*
*Возобновление любовницъ*

Хромо-литография Т-во И.Цагурия и С. Атабекова Тифлисъ Мухранская улица №25